# ÜZÜ YAXŞILARA DOĞRU



*Şəddat CƏFƏROV*

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Hər bir adam haqqında danışılanları maraqla dinləyir, yazılanları kövrək təəssüratla təkrar-təkrar oxuyur. Bəlkə də danışılanlar müəyyən müddətdən sonra yaddaşdan silinib gedir. Amma yazılana pozu olmadığı üçün onu təzədən oxumaq, üzərində düşünmək imkanları qalır. Açığı, vaxtı ilə haqqımda yazılanları maraqla oxumuşam. Hətta bəzən nəşrinə hazırlıq prosesində də nəzərimdən keçirmişəm. Nələrinsə, hansı faktlarınsa səhv olacağına yol verməmək üçün diqqət göstərmişəm. İndi bütün bunlar artıq keçmişdə qalıb. Mən də yazılanları bir növ xatirələrimi yaddaşımda bərpa etmək, olub-keçənlər haqqında təzədən düşünmək üçün oxuyuram.

Yazı adamlarının xatirələri oxuduqları, gördükləri, eşitdikləri haqqında söhbətləri sonrakı nəsil üçün həmişə maraqlı olur. Bu mənada mən yazıçıların, söz-sənət adamlarının xatirə yazmağını onların sənət borcu hesab edirəm. Siyasət adamlarının, böyük siyasətdə zəngin ömür yolu keçmiş şəxsiyyətlərin memuarları da sonrakı nəsillər üçün xüsusi əhəmiyyət kəsb edir. Zamanında açılmayan, hətta bir çoxları üçün sirr qalan hadisələrin mahiyyətini biz memuarlardan daha çox öyrənirik. Çünki bir çox hallarda siyasi hadisələrin cərəyan etməsinin sirrini, səbəbini həmin proseslərdə idarəetmə pultu arxasında olanların özləri daha yaxşı bilirlər.

Doğrusu, mən də kifayət qədər zəngin olan bir həyat yolu keçmişəm. Sıravi mətbəə işçisi kimi fəaliyyətə başlasam da, yerimdə saymamışam. Öz üzərimdə ardıcıl olaraq çalışmışam. Vaxtında başa düşmüşəm ki, inkişaf üçün oxumaq, biliyini artırmaq birinci şərtdir. Gərək dövrlə ayaqlaşasan. Elə bu günün özündə də oxumağıma, öz üzərimdə işləməyimə fasilə vermirəm. Poliqrafiya ilə bağlı elmi məqalələr üzərində işləyirəm. Kitab çapının yenilikləri, dünya poliqrafiyasında tətbiq olunan nailiyyətlər diqqətimdən qaçmır. Mən də poliqrafiyanın yeniliklərini nəzəri düşüncələrimlə əlaqələndirir, praktik işimlə bir növ təcrübədən keçirir və bu barədə fikirlərimi bizim sahə ilə maraqlanan oxucularla bölüşürəm. Əlbəttə, bu mənim ixtisas sahəmdir. Axı mənim ilk gəncliyimdən üzü bəri cəmiyyətlə yazı vasitəsi ilə ünsiyyət bağlamaq üçün jurnalistika təcrübəm də var və bundan həmişə yararlanmağa çalışmışam. Cəmiyyəti narahat edən problemləri, insanları düşündürən məsələləri bildiyim şəkildə şərh etməyə, mümkün qədər doğru, düzgün yolu göstərməyə çalışmışam. Məni tanıyanlar haqqımda həmişə deyirlər ki, Şəddat Cəfərov yumoristdir. Oxucularıma səmimi şəkildə bildirmək istərdim ki, adamları süni şəkildə güldürmək, əyləndirmək istəyindən uzağam. Ancaq həyatda müşahidə etdiyim, qarşılaşdığım adamların təbiətindən, xasiyyətindən sezdiyim maraqlı, əgər belə demək mümkünsə, gülməli əhvalatları yazıya gətirməyi xoşlayıram. Beləliklə, zaman keçdikcə yumoristik hekayələrim sıralanır və bunlar da kitab şəklində çap olunur. Hətta yumorlu hekayələrim, Rusiyada, Ukraynada, digər MDB ölkələrində də naşirlərin, yazıçı həmkarlarımın marağına səbəb olub. Tərcümə ilə Azərbaycandan kənarda da dərc olunub.

Məlumdur ki, həyatım poliqrafiya ilə, kitab çapı ilə bağlıdır. Dəfələrlə qeyd etdiyim kimi, isti münasibət, ünsiyyətli davranış ayrı-ayrı adamlarla dostluğuma şərait yaradıb. Beləliklə, mən nəşr etdiyim kitabların təkcə müəllifləri ilə şifahi ünsiyyət saxlamıram. Həm də onların kitablarını da oxuyuram. Bir çox hallarda bu kitablar haqqında müəyyən səviyyədə publisistik qeydlərlə düşüncələrimi ifadə etməyə çalışıram. Bu yolda "Kredo" qəzeti mənim əsas istinadımdır. Bu qəzetlə sıx yaradıcılıq əlaqələrim publisistik yaradıcılığımın davamlı şəkildə reallaşmasına ciddi təsir göstərir.

Memuar yazmasam da, xatirələr üzərində işləməsəm də, haqqımda yazılanları təzədən diqqətimdən keçirdikcə, olub-keçənlər haqqında yenidən düşünməli oluram. Haqqımda yazan müəlliflərin fikirlərinə münasibət bildirməyi özümün mənəvi borcum hesab edirəm.

Əli Rza Xələfli və Ceyhun Zallının "Böyük portretin işığı" kitabı həyatımın az qala, bir qərinə əvvəlki dövrü ilə bağlı təəssüratlarımın yaddaşımda oyanmasına ciddi təsir göstərdi. Haqqımda poetik örnəklər yaratmış, sənədli-publisistik əsərlər qələmə almış müəllifləri bir-bir yaddaşımdan keçirirəm. Mən Zülfüqar Qodmanlı haqqında danışdım. Bəlkə də Ağaddin Mənsurzadə haqqında da ayrıca söhbət açaram. Amma söhbət poetik əsərlərin müəlliflərindən gedirsə, mən Fəxrəddin Ziyanı məhz bu arada xatırlatmalıyam. Fəxrəddin Ziyanın kimliyi, onun ədəbi portreti də mənim istinad etdiyim kitabda kifayət qədər diqqətlə yaradılır. Oxuculara yaxşı məlumdur ki, Fəxrəddin Ziya da əziz dostlarım, indi əbədiyyətdə olan Zülfüqar Qodmanlı və Ağaddin Mənsurzadənin kiçik qardaşıdır.

O, Yazıçılar Birliyinin üzvüdür. Çox humanist təbiətli bir həkimdir. Amma tanrının bəxş etdiyi poetik istedadını bədii yaradıcılıqla da reallaşdıra bilir. Onun şair kimi tanınması, əlbəttə, özünün istedadı ilə bağlıdır. Ancaq istedada da gərək vaxtında dayaq durasan. Onu həyatın çətinliklərinin qarşısında tək buraxmayasan.

Fəxrəddin Ziya təbiət etibarı ilə ünsiyyətcil, mehriban insandır. Onun bir şair kimi təqdimatı "Böyük portretin işığı"nda kifayət qədər dolğun verilib. Düşünürəm ki, şair Fəxrəddin Ziyanı həm mənimlə bağlayan səbəblər, həm də onun kimliyi, xarakteri haqqında daha aydın məlumatı elə "Böyük portretin işığı" kitabından aldığım parça ilə oxucuya çatdırmaq daha düzgün olar: "*Fəxrəddin Ziyanın ən üstün keyfiyyəti həm də onun dədə-baba dostluğuna sədaqətidir. Şübhəsiz, elə onun özünə istinad etsək, Ş.Cəfərovla dostluğu o, öz qardaşlarından estafet kimi qəbul edib. Dini dəyərlərdə də belə bir hikmət var: "Övladın ən yaxşısı atasının dostu ilə dostluğu davam etdirəndir". Bu mənada, Fəxrəddin Ziya həqiqətən Ağəddin Mansurzadə, Zülfüqar Qodmanlı yolunun ən dəyərli davamçısıdır. O, hər vaxt Ş.Cəfərovdan söhbət düşəndə hörmətlə danışır. Bir insan kimi onun üstün keyfiyyətlərini söhbətinin əsas mövzusuna çevirməkdən məmnunluğunu gizlətmir. O, Ş.Cəfərov haqqında bir neçə qeydin, yazının, şeirin müəllifidir. Bir yazısında isə sanki Ş.Cəfərovla görüşlərinin, dostluq münasibətlərinin tarixinə səmimi bir nəzər yetirir. "Yaxşıların yaxşısı" adlı yazıda Fəxrəddin Ziyanın özünü Ş.Cəfərova bağlayan tərəfləri də görə bilirik: "Fəxrimiz olan Şəddad müəllimin adını indi haqq dünyasında olan böyük qardaşlarım Zülfüqar Qodmanlı və Ağəddin Mansurzadədən eşitmişdim. Hər ikisi bu şəxsə sonsuz məhəbbət bəsləyərdi. İxtisasca həkim olsam da, gəncliyimdən yazı-pozuya meylliyəm. Hələ tələbə ikən şeirlərim «Bakı», «Azərbaycan gəncləri», «Ədəbiyyat və incəsənət» və s. qəzetlərdə dərc olunardı. Həmin qəzetlərin redaksiyaları indiki "Azərbaycan" nəşriyyatında yerləşirdi. Qardaşlarım vasitəsilə Şəddat müəllimlə tanış olanda o, nəşriyyatda baş direktorun müavini idi. Redaksiyalara gedəndə fürsətdən istifadə edib Şəddat müəllimlə görüşüb hal-əhval tutmaqdan xüsusi zövq alardım. İşinin çox olmasına baxmayaraq hamıya vaxt ayırmağı bacarırdı. Şəddat müəllim yalnız nəşriyyatı idarə edən texniki adam deyildi. Ürəyində yaradıcılıq eşqi olduğundan yaradıcı adamlara, bütövlükdə bütün adamlara qarşı həssas və diqqətcildi. Özü də ədəbi mühitdə tanınır, kiçik yumoristik hekayələri mətbuatda dərc olunurdu". Fəxrəddin Ziya bu qeydlərdə sanki öz pasiyentinə, mənəvi istinad obrazına bir həkim gözü ilə diaqnoz qoyur. Dəqiq, psixoloji müşahidə ilə fikir yürüdür. Nə qədər doğru deyir, "Yrəyində yaradıcılıq eşqi olduğundan..." Bəli, elə bu səbəbdən də Fəxrəddin Ziya təsdiq edir ki, Şəddad müəllim yaradıcı adamlara qarşı, bir insan kimi hər kəsə qarşı necə diqqətli və həssasdır.*". Müəlliflər qeydlərində bizi bağlayan doğmalıq münasibətlərinin sanki tarixinə də ekskurs edirlər. Hiss olunur ki, onlar Fəxrəddin Ziya haqqında kifayət qədər məlumatlıdırlar. Mənim üçün də çox dəyərlidir ki, F.Ziya qardaşları ilə aramda olan dostluq münasibətlərini özünün nümunəsində sədaqətlə davam etdirməkdədir.

Yəqin ki, hər bir adam yaxşı bilir ki, bir çox adət və ənənələrdə varisliyin qorunması əsas şərt olduğu kimi dostluq münasibətlərinin qorunmasında da mənəvi əlaqələrin qırılmazlığı böyük əhəmiyyət kəsb edir. Əgər belə əlaqələr ardıcıl, davamlı olmasaydı, onda cəmiyyətin mənəvi nizamı pozulardı.

Mən hiss edirəm ki, müəlliflər F.Ziya ilə məni bağlayan münasibətlərin psixoloji köklərini də yaxşı bilirlər. Çünki onlar F.Ziyanın mənə münasibətində bir yazıçı həmkarlığı da müşahidə edirlər. F.Ziyanın mənə həsr olunmuş yazılarında O məni təkcə naşir kimi yox, həm də yazıçı kimi cəmiyyətə tanıtmağa çalışır.

Müəlliflər də doğru qeyd edirlər. Mən özüm də düşünürəm ki, insanlara nə qədər əməlinə, əməyinə, bir sözlə, ictimai fəaliyyətinə görə dəyər verilirsə, bir o qədər də adamlara münasibətinə görə dəyər verilir. İnsanlığı uca tutmayan, insana hörmət etməyən şəxsin heç özünün də hörməti olmaz. Görünür, müəlliflər F.Ziyanın mənə həsr olunmuş əsərlərindən çıxış edərək haqqımda kifayət qədər həssas, səmimi, təqdiredici ifadələr işlədir, məni nəzərdə tutaraq yazırlar: "Onun *bir üstünlüyü var ki, o, əməli fəaliyyətində də, davranışında da təqdir olunan simadır. İllər boyu mənimsədiyi həm elmi, həm də praktik cəhətdən yüksək dərəcəli mütəxəssis kimi formalaşdığı sahəyə aid bilik və təcrübəsini cəmiyyətin mənafeyinə uyğun sərf edir. Vəzifə pillələrində qalxdıqca çoxları elə düşünürdü ki, o, adamlardan ayrı düşəcək. İnsanlarla arasında çoxları kimi süni manеə sədləri yaradacaq. Amma o, bu yolu seçmədi. İmkanlar artdıqca, səlahiyyət böyüdükcə insanlara daha yaxın oldu. Hər kəsin istək və arzusuna imkanları daxilində yardımçı olmağa çalışdı*". Bu sözləri oxuduqca həyatımın dostluq tarixi də gözlərimin önündən keçir. Axı mən özüm də çox maraqlı insanlarla görüşmüşəm. Təzadlı hadisələrlə qarşılaşmışam. Çoxlarının dostluğu özünün təmənnası qədər olub. İmkanı, vəzifəsi dəyişəndən sonra artan maddi vəziyyətinə görə qeyrilərinə yuxarıdan-aşağı baxıblar. Beləlerinin, xüsusilə dostlara münasibəti dəyişirsə, bu daha betər iz buraxır. Çox təəssüflə düşünürsən ki, beləsi ilə dostluq havayı gedən vaxt olub. Təbiidir ki, təəssüflər insanın itirdiklərini geri qaytarmır.

Mən hərdən həyati müşahidələrimdən gələn aforizm tipli cümlələrlə fikrimi ifadə etməyi də xoşlayıram. Çoxlarına elə gəlir ki, bunlar bəlkə gəlişigözəl bir ifadə kimi düşüncəmə gəlib, mən də yazıya almışam. Amma belə deyil. Bütün bunlar həyatımın ötən çağlarının nəticəsi kimi yazıya alınan qeydlərdir. Mən həmişə demişəm, sənətkar zamanı yazmalıdır. Həyatı yazmalıdır. Xüsusilə özünü yazarsa, onda yazdıqları daha təbii alınar. Müasirləri də onu yaxşı başa düşər. Gələcək nəsillər də ötüb-keçmiş zaman haqqında aydın təsəvvür əldə edə bilərlər. Kitabda mənim psixoloji-fəlsəfi düşüncələrimi ümumiləşdirən məqamlar da az deyil. İndi müəlliflərə rəğbətli münasibətimlə həmin qeydlərə xüsusi maraqla istinad edirəm: "*Zamanı axar çaya bənzədirlər. Bir anda yaşadığımız zamanı biz təkrar görə bilmirik. Deməк, hər hansı bir əməlimizin də eynilə təkrarını görə bilmərik. Yaxşı əməlimiz də, pis əməlimizdə - əgər həyatımızın bir parçası olaraq yaşanıbsa, o artıq tarixin ixtiyarındadır və onu dəyişdirə də bilmərik. Şəddad Cəfərov da məhz həyatın bu pozulmaz qanınauyğunluğunu özünün həyat amalına çevirərək fəaliyyətini elə qurmağa, elə tənzimləməyə cəhd edib, çalışıb ki, sonradan ötən günləri iztirabla xatırlamalı olmasın. Yaşının indiki çağında ona olan böyük ehtiramın kökünü onun elə həyata münasibətində axtarmaq lazımdır: «Xeyir əməl, humanist münasibət daşa yazılmış yazı kimidir», - bu hikməti məhz Şəddad Cəfərovun dilindən eşitmişəm, adicə söhbətimiz zamanı danışığından, nitqindən keçib. Hiss etmişəm ki, o, danışdığının fərqinə varmadan - yəni bu ifadənin bir hikmət olduğunun fərqinə varmadan işlədir. Təkcə nitqinin bəzəyi üçün yox, həm də həyatı mənalı edən mahiyyət kimi, təcrübəsindən, gördüklərindən nəticə kimi, düstur kimi dilə gətirib. Şəddad Cəfərovun həyat və fəaliyyətini, onun zəngin-mənəvi mühitini, həyat yolunu müasirləri olan yazıçıların, şairlərin sənət müstəvisinə çıxarması da elə onun məhz cəmiyyətə münasibətilə bağlıdır*". Yaxşı qənaətlərdir. Təkcə ona görə yox ki, mənim düşüncələrimlə, həyatımla bağlıdır. Ümumiyyətlə, cəmiyyətlə bağlı olduğu üçün maraqlıdır. Mən belə fikirləşirəm ki, belə düşüncələr insanları həyatı daha yaxşı başa düşməyə sövq edir. Müəlliflərin qeyd etdiyi kimi, mən insanlara ləyaqətli təbiətlərinə görə qiymət verməyi xoşlayıram. Əgər beləsi həmvətənimdirsə, həmyerlimdirsə, onda daha qürurlu oluram. Bütün hallarda müəlliflərin qeyd etdiyi kimi, mənim üçün əsas meyar doğruluqdur, düzgünlükdür. Kim doğrunun, düzgünün üzərinə kölgə salmağa çalışırsa, o qəbuledilməzdir. Beləsi tezliklə insanlar tərəfindən aşkar olunacaq, onun mənəvi kimliyi tanınacaq. Əgər belə demək mümkünsə, özünün haqlı cəzasını da alacaq. Bu qeydləri qələmə alarkən gözlərimin önündən keçən müəlliflərin obrazları bir çox hadisələri yaddaşımda təzələyir. Bu qeydləri qələmə alarkən mən yalnız Fəxrəddin Ziya haqqında danışmaq istəyirdim. Amma görürəm ki, qeydlərim müəyyən hadisələrlə bağlı olaraq şaxələnir. Həyat və cəmiyyət haqqında düşüncələrim özünə daha çox yer alır.

Harada işləmişəmsə, vətənin böyük oğulları ilə fəxr etmişəm. Həzi Aslanovla bir yurddan, bir torpaqdan olmaq qəlbimdə xüsusi qürur mənbəyi olub. İndi "Böyük portretin işığı"nı vərəqlədikcə müəyyən məsələlərə təzədən münasibət bildirməyi özümə borc bilirəm.

**(*Davamı 11-ci səhifədə*)**

# ÜZÜ YAXŞILARA DOĞRU

***(Əvvəli 10-cu səhifədə)***

Axı elə Həzi Aslanovun özü ilə bağlı dəfələrlə publisistik düşüncələrlə münasibət bildirmişəm, yazılar yazmışam. Hətta onun haqqında məşhur "General" romanını təzədən nəşrə hazırladığım günlər də xəyalımdan keçir. Bu barədə kifayət qədər sərrast qeydlər "Böyük portretin işığı" kitabında da yer alır: "*Kimsəyə sirr deyil ki, Azərbaycan xalqının şərəf tarixi kimi adını əbədiləşdirmiş simalar az deyil. Bu örnək olan tarixi şəxsiyyətlərin haqqında yazılanları adlarına layiq araya-ərsəyə gətirməkdə Şəddat müəllimin xidmətləri əvəzsiz olub. Onun II Cahan savaşındakı qəhrəmanların həyat yolunu əks etdirən əsərləri, nəşr sahəsindən xidmətləri artıq danılmaz faktlarla təsdiqlənir. Eləcə də Qarabağ savaşında şücaətlər göstərmiş bəlli adlar-ünvanlar kitablara çevrilib, əbədiyaşar abidələr olub və bu kitabların, bu abidələrin araya-ərsəyə gəlməsində Şəddat müəllimin canıyananlıqla çalışmalarını müəlliflər heç vaxt unutmurlar. Bu sıradan çoxlu misallar gətirmək olar. Ancaq onu yaxşı tanıyan müəllif və redaktor kimi təqdir olunan şairlərdən, qələm sahiblərindən biri kimi Fəxrəddin Ziyanın yazdıqlarını çox mötəbər mənbə hesab etmək olar. Həm də, söhbət elə Fəxrəddin Ziyanın qardaşlarına, özünə doğma olan Şəddat Cəfərova münasibətindən söhbət gedirsə, onda elə onun dediklərinə bir daha qayıtmaq daha çox yerinə düşərdi: «Cəsur sərkərdə Həzi Aslanovun ömür yolundan bəhs edən «General» romanının latın qrafikası ilə yeni nəşrini hazırlayırdıq. Əsərin müəllifi, xalq yazıçısı Hüseyn Abbaszadə xəstə yatırdı. Kitabın redaktoru olduğumdan yeni nəşrin gərginlikləri gözlərim önündədir. Həm generalın ruhuna ehtiram əlaməti olaraq, həm də müəllifi sevindirməkdən ötrü Şəddat müəllim bütün texniki imkanlardan istifadə etməyə çalışırdı. Nəticədə kitabın üz qabığı müəllifin istəyinə uyğun olaraq süni dəridən nəfis şəkildə hazırlandı. Bu, Şəddat Cəfərovun kitaba, yaradıcı insana, qəhrəmanlığın ən yüksək zirvəsi sayılan Həzi Aslanova, bütövlükdə Azərbaycana məhəbbətidir». Doğrudur, həqiqətən Həzi Aslanov haqqında yüksək poliqrafik dəyərdə kitabın nəşri elə Azərbaycana məhəbbətdir. Və bu yöndə Şəddat Cəfərovun gördüyü işi Fəxrəddin Ziya bir şahid kimi xatırladır. Üstəlik biz Fəxrəddin Ziyanın qeydlərində Şəddat Cəfərovun «General» romanının müəllifi Hüseyn Abbaszadəyə ehtiramlı münasibətini də görə bilirik*". Onu da deyim ki, neçə il bundan əvvəl bu qeydlərin yazılmağı mənim Həzi Aslanovla bağlı düşünmə imkanlarımı genişləndirdi. Mən Həzi Aslanov haqqında yazılanları təzə oxumağa başladım. Hətta Musa Bağırovun Həzi Aslanov haqqında yazdığı kitabı təkcə nəşr etmədim, həm də kitabın mahiyyətindən, məzmunundan bəhs edən əhatəli publisistik qeydlər yazdım.

"Böyük portretin işığı" kitabında haqqımda yazılanları təzədən müşahidə edəndə, bəzi yazıları lap diqqətlə oxuyanda elə məqamlara rast gəlirəm ki, dayanıb düşünməli oluram. Həyatımı çək-çevir edirəm. İşlədiyim kollektivlər, iş münasibətlərində olduğum insanlar hamısı bir-bir gəlib gözlərimin önündən keçir.

Aydın məsələdir ki, həyat özü mürəkkəb hadisələrlə, gözlənilməzliklərlə dolu olduğu kimi iş yerində də qeyri-adi qarşılaşmalar az olmur. Çox az-az adam tapılar ki, iş yerindəki münasibətləri dəqiq, axıra qədər, normal tənzimləyə bilsin.

Mənim üçün üstün olan cəhətlərdən biri də bundan ibarətdir ki, iş yerində ünsiyyətdə olduğum adamlar məndən narazı qalmasın. Hətta ən kəskin qarşılaşmada belə mən çalışıram ki, doğrunu, düzgünü başa düşsün. Vəziyyəti düzgün qiymətləndirsin. Kimin haqlı, kimin haqsız olduğunu vaxtında anlasın. Əsas təqdiredici cəhətlərdən biri də bundan ibarətdir ki, "Böyük portretin işığı" kitabının müəllifləri mənim həyatımın görünən və görünməyən tərəflərinə kifayət qədər aydınlıqla nəzər yetirə biliblər: "*Beləliklə, bir insanın həyatının görünən və görünməyən tərəflərini ayrı-ayrı müəlliflərin obrazlı münasibətləri fonunda göstərməyə çalışırıq. Şübhəsiz, hər birimizin münasibətini göstərən yazılarda obyektiv və subyektiv tərəflər ola bilər. Hətta, subyektiv tərəflərin özündə də cəmiyyətin mənafeyi əsas götürülürsə, demək, bunun özündə də bir obyektivlik var. Yəqin ki, Fəxrəddin Ziya da elə bunu demək istəyir: «Şəddat müəllim dövrümüzün ən işıqlı simalarındandır. Onunla ilk tanışlıqdan təmənnasızlığın şahidi olmuşam. O, heç zaman gözləmir ki, kimsə ona ağız açıb nəsə xahiş etsin. Bir şəxsin ehtiyacını bilən kimi ona yardımçı olmağa çalışır». Fəxrəddin Ziya bu səmimi və dəyərli qeydlərinin sonunda belə bir qeyd də verib: «Xeyli əvvəl yazdığım «Yaxşılar» şeirimi yaxşıların yaxşısı saydığım Şəddat müəllimə ərmağan edirəm». Elə Fəxrəddin Ziyanın şeirinin adından çıxış edərək onu poetik münasibətə gətirən səbəbi də yaxşılar adlandırmaq olar. Fəxrəddin Ziya «Yaxşılar» adlandırdığı şeirinə belə bir epiqraf da verib: «Yaxşı kişilərlə dostluq edin». Sonra da bu ifadənin Məhəmməd peyğəmbərə məxsus olduğunu ayrıca qeyd edir*". Bu qeydlərdə müəlliflər, əgər belə demək mümkünsə, şahid ifadələrinə söykənirlər. Yəni Fəxrəddin Ziyanın öz düşüncələri əsasında mühakimə yürüdürlər. Onun düşüncələrinə görə mənim bir insan kimi cəmiyyətdə tutduğum mövqeyə qiymət verməyə çalışırlar.

Bəzən təvazökarlıq haqqında çox danışırlar. Mən də razıyam. Amma o məsələdə ki, cəmiyyətlə bağlı fikirlər müzakirəyə çəkilir, onda əgər həyatınla bağlı müəyyən məqamlar vəziyyətə aydınlıq gətirirsə, onda nə üçün şahidi olduğun, gördüyün, həyatında yaşadığın, hətta özünün gücünlə müəyyən səviyyədə həllini tapmış məsələlər haqqında cəmiyyətə açıq-aydın məlumat verməyəsən. Ona görə də mən Fəxrəddin Ziyanın düşüncələrinə xüsusi rəğbətlə yanaşıram. Əgər o deyirsə ki, mən Şəddat Cəfərovla tanışlığın ilk günlərindən onun təmənnasızlığını duymuşam, bu mənə xüsusi mənəvi rahatlıq bəxş edir. Demək, elə adamlar var ki, onlar həyatda gördükləri üstün keyfiyyətləri, insani münasibətləri unutmurlar. Yəqin ki, Fəxrəddin Ziyanın da haqqında poetik düşüncələrə müraciət etməsi bu həyati faktla bağlıdır. Hərçənd ki, mənim özüm də Fəxrəddin Ziyanın həm yazılarında, həm də şəxsiyyətində sözün həqiqi mənasında işıq görürəm. Bu da çox nadir, tarixi bir təsadüfdür ki, onun təxəllüsü Ziyadır. Mənə elə gəlir ki, insanlar hərdən öz adları haqqında da düşünməlidirlər. Nə dərəcədə öz adlarının qədrini bilirlər, bu adları doğrultmaq gücündədirlər. Daşıdıqları adın təbiətini nə dərəcədə qoruyub saxlayıblar.Axı insanlar öz arzularını, istəklərini adlarda görməyi xoşlayırlar. Valideynlər övladlarına elə ad verməyə çalışırlar ki, bu adlarla onların övladları cəmiyyətdə daha üstün ünvanla tanınsınlar.

Bunun üçün hər kəs gərək adının yaxşılıq, üstünlük mahiyyətini öz həyatında doğrulda bilsin. Nəhayət, Fəxrəddin Ziyanın haqqımda yazdıqları ilə bağlı düşüncələrimi oxucularımla bölüşmək istəyirəm. Axı məhz bura qədər mən cəmiyyətə işıq ola biləcək insan təbiətləri, xarakterləri haqqında danışdım. Çalışdım ki, qəlbimdə yığılıb qalmış düşüncələrimi oxucularımla bölüşüm. Bir növ məni başa düşən insanlarla polemika aparım.

Bütün polemik düşüncələrdə ən azı iki tərəf var. Bir tərəfdə polemikaya meyilli olan sosial, mənəvi problem qaldıran şəxsin özü dayanırsa, digər tərəfdə cəmiyyət dayanır. Yəni, polemikada əsas məqsəd odur ki, cəmiyyət mübahisəli olana münasibət bildirsin. Doğru olanı yüzlərlə yalanın arasından seçə bilsin. Bunun üçün cəmiyyətin işığı necə qəbul etməsindən çox şey asılıdır. Bir sözlə, buraya qədərki düşüncələrimin əslində Fəxrəddin Ziyaya o qədər çox dəxli yoxdur. Mən bütövlükdə ziyalı və cəmiyyət məsələləri ilə bağlı fikirlərimi bölüşməyə çalışdım. Zənnimcə, mümkün qədər özümü ifadə edə bildim.

İndi bir az da istərdim ki, Fəxrəddin Ziyanın ünvanıma istinadən yazdığı şeirlə bağlı düşüncələrimi elə "Böyük portretin işığı" kitabına istinadən oxuculara çatdırım: "*Heç şübhəsiz, Fəxrəddin Ziya da ilhamlı bir şairdir. Xüsusilə, cəmiyyəti təbiətlə, insanı cəmiyyətin və təbiətin özündən təcrid etmədən insana bütövlükdə cəmiyyətin özü, təbiətin özü kimi baxmaq sarıdan yaradıcılıq örnəkləri ilə tanınması göstərir ki, onun həyata baxışı kifayət qədər kamildir, əhatəlidir. Elə Şəddat Cəfərova həsr etdiyi "Yaxşılar" şeirində də məramını zamanın və təbiətin fonunda şərh etməyə çalışır. Əgər təbiətdə harmoniya pozulmursa, onda təbiət insanın daha sağlam yaşaması üçün əsas mənbədir; eləcə də cəmiyyət. Mənəvi cəhətdən yetkin cəmiyyət kamil insanın formalaşmasına real zəmin olur. Fəxrəddin Ziya əvvəlcə mətləbə təbiət motivlərindən gəlir. Əlbəttə, təbiəti zamandan ayırmamaq şərtilə*". F.Ziyanın şeirini müəlliflər diqqətə çəkərkən onun insan təbiəti ilə dünyanı, hətta ili, fəsili, təbii mənzərələri müqayisəyə çəkməsini təsadüfi hesab etmirlər. Hiss olunur ki, Fəxrəddin Ziyanın "Yaxşılar" adlı şeirinin cəmiyyət üçün vacib olan problem mahiyyətini açmağa çalışırlar. Həqiqətən də, axı yaxşılar cəmiyyətin müəyyən mənəvi harmoniyasının təmsilçiləridir. Bir anlığa düşünək, birdən yaxşılar olmayaydı, onda cəmiyyət hansı gündə olardı. Onda cəmiyyət özünü tənzimləyə bilərdimi? Zənnimcə, bütün bunlar elə Fəxrəddin Ziyanın öz şeirində də kifayət qədər bədii həllini tapır.

*Yaxşı elə yarənandan yaxşıdır,*
*Yaxşı bulud, yaxşı səma, yaxşı Ay.*
*Ömrümüzün, bəxtimizin naxşıdır,*
*Yaxşı sutka, yaxşı həftə, yaxşı ay.*

*Xoş günlərin carçısıdır, əl eylər,*
*Dağda-daşda cığır salar, yol eylər.*
*Nemət adlı ruzisini bol eylər,*
*Yaxşı payız, yaxşı bahar, yaxşı yay.*

İndi bu şeirin misralarını oxuduqca mən demirəm ki, özümü görürəm. Hər halda şairin cəmiyyət üçün mənəvi problem olan yaxşılıq düşüncələrinin əks-sədasını görmək mümkündür. Bir də onu demək istərdim ki, bəlkə də Fəxrəddin Ziyanın "Yaxşılar" şeirinin yaranmasında onun böyük qardaşı Zülfüqar Qodmanlının "Yaxşılıq" şeirinin yüksək dərəcədə təsiri olmamış deyil.

"Böyük portretin işığı" kitabının müəllifləri bu şeirlə bağlı düşüncələrini insan və təbiət qarşılığında aydınlaşdırmağa çalışırlar: "*Maraqlıdır ki, yaxşı bir insan haqqında fikir deməyə hazırlaşan şair hələ onun haqqında heç nə demir. Amma saf, duru bulaqlardan danışır. Bağı, bostanı, zəmini bar-bəhərə gətirən suları tərənnüm edir. Və eyni zamanda, könlümüzün sərin bir bulaq suyuna möhtac olduğu zaman o duru sudan necə bəhrələnirik, təşnəmizi, yanğımızı söndürmək üçün suya necə istəklə üz tuturuq... bax, bu məqamlara diqqəti yönəldir*". Bundan sonra müəlliflər Fəxrəddin Ziyanın şeirindən daha bir bənd misal gətirirlər. Bu bənddə də Fəxrəddin Ziyanın təbiət bilgisi, ilkinliyə sevgisi kifayət qədər aydın görünür. Elə mənim özüm də bu bəndi oxuyanda doğma yerlərin bulağı, suyu, meşəsi gözlərimin önündən keçdi.

*Bardan qalar onsuz bostan, bağ, zəmi,*
*Elimizin, obamızın Zəmzəmi.*
*İsti gündə təşnəmizin məlhəmi,*
*Yaxşı bulaq, yaxşı kəhriz, yaxşı çay.*

Bir sözlə, şair konkret olaraq hər hansı bir şəxsiyyətin adını çəkmədən insanı saf, sağlam təbiətlə müayisədə ortalığa gətirir. Bu düşüncələri oxumaq mənə xüsusi zövq verir. Həm Fəxrəddin Ziyanın şeirləri kifayət qədər dəqiq təhlil olunur, həm də Fəxrəddin Ziyanın gözəl poetik örnəyi bir daha ruhumdan, düşüncəmdən bulaq suyu kimi axır. Qəlbimdə xüsusi bir təəssürat doğurur. İstərdim ki, bu yerdə müəlliflərin Fəxrəddin Ziyanın təbiət və insan qovuşuğunda ərsəyə gələn şeirinin həm təhlilini, həm də qalan bəndlərini oxucu özü bütövlükdə diqqətinə çəksin: "*Nəhayət, şair yaxşı bulağı, yaxşı kəhrizi, yaxşı çayı həyatın qaynağı kimi görür və buna uyğun olaraq insandakı aliliyi, mənəvi saflığı da məhz su duruluğuna bərabər tutur. Və hesab edir ki, hər hansı bir şəxsin ləyaqətli sovqatı da, yaxşı payı da elə müdriklikdir:*

*Bir dəmət tut bağından gül dərilsə,*
*Sözdən yarat ömür qəsrin hörülsə.*
*Müdriklikdir təmənnasız verilsə,*
*Yaxşı sovqat, yaxşı bəxşiş, yaxşı pay.*

*Az görməmişik ki, mənəvi cəhətdən təbiəti duru olmayan birisi cüzi bir yaxşılığı necə təmənnaya çevirir. Yaxşılıq etdiyi şəxsin başının üzərindən Tantal qayasına çevirib asır. Və sanki yaxşılığının əvəzini almayınca onun başının üzərindəki qayanı götürməyəcəyini az qala qızara-qızara deyir. Belələrinin təmənnalı yaxşılığı insanın gələcəyə ümidini öldürür. Həyatı insanın gözündən salır. Ancaq elələri də var ki, əvəzsiz, təmənnasız olaraq bəxş etdiyi bir payı heç vaxt yada salmır. Bunun üçün qətiyyən əvəz gözləmir. Şübhəsiz, belələri cəmiyyətin gözündə alilik kəsb edir, ucalır. Məhz Fəxrəddin Ziya da şeirini həsr elədiyi ədəbi obrazda, yəni Şəddad Cəfərovda elə bu üstün keyfiyyətləri görür və onu ilhama gətirən duyğunu da məhz onun təmənnasızlığından alır:*

*Ay Fəxrəddin, dəyişdikcə ruzigar,*
*Hər arzudan kaş doğa bir xoş qərar.*
*Nə yaxşı ki, hələ vardır yaxşılar,*
*Yaxşıların yaxşısını yaxşı say!*

*Fəxrəddin Ziyanın "Yaxşılar" şeirinin oxuduğumuz son bəndi kifayət qədər mükəmməldir. Fikir bitkinliyi, düşüncə aydınlığı ilə seçilir. Sözlər biçiminə, mənasına görə əsgər nizamı ilə düzülənib. Və o, ədəbi qəhrəmanına güvənclə həyata, dünyaya, insanlara sanki üz tutaraq hələ də yaşamağın dəyərli olduğunu inamla bildirir*". Bu təəssüratlar o qədər təsirli, gözəl və hissiyyatla qələmə alınıb ki, mən araya müdaxilə etmədim.

Xoşbəxtlik haqqında çox danışılır. Amma bədbəxtliyi danışmasalar da, hər kəs özü bildiyi kimi qavrayır. İnsan cəmiyyəti formalaşdığı gündən müəyyən ağrılarla, acılarla yaşayıb. Yəni faciələr görüb. Çox ağrılar çəkib. Bütün hallarda insanın mənəvi potensialı, enerjisi ona imkan verib ki, həyatın gətirdiyi çətinliklər, ağrılar, acılar önündə sarsılmasın, öz gücünü səfərbər etsin. Həyatı yaşamağı bütün istəklərdən uca tutsun.

Kim ki, düşünürsə xoşbəxtlik bir qızıl məcmeidə taleyin payıdır və nə vaxtsa ona qismət olacaq, yəqin ki, səhv edir. Amma xoşbəxtliyi özünün zəhməti ilə, əməli fəaliyyəti ilə, bir sözlə, cəmiyyətə bəxş elədiyi yaxşılıqlarla qazanmaq istəyənlər yəqin ki, daha doğru yoldadırlar.

Bir sözlə, xoşbəxlik həyatın ayrı-ayrı məqamlarıdır. Sən yaşadığın zamandan, qarşılaşdığın insandan... məmnunluq duyursansa, demək, xoşbəxtsən və bunu səndən heç kim ala bilməz.

Bütün hallarda könül oxşayan söz, duyğuları qanadlandıran, insanı yaşamağa, yaratmağa çağıran duyğular, düşüncələr əslində xoşbəxtlik yoluna gedən istiqamətin işıqlarıdır. Mən çox istəyərdim ki, hər kəs xoşbəxtliyin uzaqda olmadığını, özünün yaxınlığında olduğun və bir sözlə, istəyindən, əməlindən asılı olduğunu bilsin.

Mən əvvəlcə bəlkə də, Fəxrəddin Ziyanın "Yaxşılar" şeiri haqqında danışmaq istəyirdim. Amma doğrusu, "ziya" sözü mənim düşüncələrimə daha geniş istiqamət verdi. Və mən çalışdım ki, cəmiyyət üçün ziya ola biləcək daha üstün keyfiyyətlər haqqında danışım.

Mən yaxşı bilirəm, cəmiyyət işıq istəyir. Bütün hallarda irəliyə doğru yol işıqdan keçir. İşığı dəyərləndirmək, işığı qiymətləndirmək insanın özünün həyatı daha gözəl yaşaması üçün vacibdir.

İşıqsız cəmiyyət yaşaya bilməzdi. Ziya fikir işığıdır. Hər bir insanın həyat yoluna ən üstün bələdçi elə işıqdır.

***05.01.2023***